


# Çağdaş tariximizin şanlı səhifəsi

## 80 yaşlı 21 Azər və Pişəvəri müəmması

*Azərbaycan Demokratik Firqəsinin sədri, Azərbaycan Milli Hökumətinin rəhbəri, jurnalist, publisist, ictimai xadim Seyid Cəfər Pişəvərinin ruhuna sonsuz sayğılarla!*
*(21 Azər hərəkatının 80 illiyinə - babam İsmayıl Paydar-Dəryaninin və fədailərimizin uca ruhlarına ithaf edirəm)*



**Turan Uğur**
AYB üzvü

(əvvəli ötən sayımızda)

***-Kitab mağazanız harada idi?***
***-Rifahi xiyabanında.***
***-Nə vaxtdan kitab mağazanız vardı?***
***-Təqribən 2 il.***
***-Kitab satmaq işini nə üçün tərk etdiniz?***
***-Qazancı yox idi. Bir də ki, başqa iş tapmışdım.***
***-Şurəvi mədrəsəsində nə dərsi verirdiniz?***
***-Rus siniflərində riyaziyyat, coğrafiya, fars dili.***
***-Ayda nə qədər gəliriniz vardı?***
***-120 tümən.***
***-Nə zamandan Şurəvi mədrəsəsində müəllim oludnuz?***
***-1929-cu ilin avqustundan.***
***-İran tarixi ilə 1929-cu ilin avqustu nə vaxtdır?***
***Pişəvəri hiss edir ki, müstəntiqin savadı azdır.***
***-1308-ci ilin Şəhrivər ayının əvvəli.***
***-Ktab mağazasında şərikin vardı?***
***-Şərik yox, şagirdim vardı.***
***-Neçə?***
***-3 nəfər.Adlarını buyurun.***
***-15 yaşında bir yeniyetmə - adı Hacı Xan idi, soyadı yadımda deyil.Onu başqamççı tanış eləmişdi mənimlə.Əmirian idi soyadı.***

Pişəvəri 10 il zindan həyatında yoldaşı Məsumə dəfələrlə bağışlanmaq ərizəsi yazsa da, cavabsız qalmışdı.Psixoloji cəhətdən Pişəvərini sarsıtmaq üçün həyat yoldaşı Məsumə xanıma təklif edirlər ki, "ərindən boşan, başqasına ərə get" Məsumə xanım bu iyrənc təklifi rədd edir, Pişəvəriyə sona qədər sadiq qalır.

Müstəntiq çox cəhd edir ki, Pişəvəri tələbəsi Əli Şərqinin boynuna qoysun "günah" ları.Təcrübəsiz müstəntiq istintaq vərəqini istədiyi kimi yazır Pişəvəridən tələb edir ki, imzalasın. Pişəvəri "mütləq o yazılanları oxumalıdır" - deyə etiraz edir.

Müstəntiq əsəbiləşir:

-Burda iki kəlmənin artıq olmasının nə əhməyyəti var?

-Ağa təqsiri bir kəlmə ilə qoya bilərlər boyuna."Xeyr" əvəzinə "bəli" yazsanız bəs edir.

Müstəntiq Fəruzeş anlayır ki, qarşısındakı arif adamdır, Pişəvəri boyda nəhəngdir.

Birinci demokratın xatirələrindən anlamaq olur ki, Rza şahın məmurları ona fiziki, psixoloji əziyyət veriblər, özü də dəfələrlə, amma Seyidin iradəsini sındıra bilməyiblər.Pişəvəri ağrı və qürurla yazırdı ki:

"Rza şah bütün cəlladlıq mexanizmindən istifadə edib yoldaşlarımızı, sirdaşlarımızı məhv etdi, lakin əhval-ruhiyyəmiz qüvvətli olduğu üçün mübarizəni davam etdirdik"



Pişəvərinin qanının arasına II Cahan savaşının başlanması girir.Müharibənin 2-ci ilində - 1941-ci ildə məhbəsdən azad edilən Seyid Cəfər Tehrana qayıdır.İran Xalq Partiyasının yaranmasında iştirak edir, təbii ki, Tudə ilə Kommunist Partiyası arasında paralellər aparmaq kökündən yanlış idi.Sadəcə bunun o cür təqdim edilməsi, siyasi vitrinə bu şəkildə qoyulması hərəkata dəstək idi; gün kimi aydın idi ki, Sovetlərin iştirakı və himayəçiliyi olmasaydı, 21 Azər hərəkatının yaranması mümkünsüz idi.

Əmioğlu Mahmud Paydar da mənimlə söhbətlərində İsmayıl babamın və özündən kiçik qardaşı Qulu Paydarın Tudəçi kimi fəal olduğunu deyirdi. Ən kiçik qardaşları Nəcəfqulu isə Tudənin üzvü olmayıb, tarzənlik edib.İsmayıl babamla Qulu əmi Tudəçi kimi Təbrizdə haqsızlığa qarşı çıxış edərdilər, torpaqların kəndlilərin əlindən alınmasına etirazlarını bildirər, Rza şahın istibdadına qarşı çıxardılar. Yəni o qənaətə gəlmək olar ki, Tudə sol yönümlü partiya kimi yox, daha çox zülmdən, səfalətdən sığınmağın tək ünvanı olan Xalq partiyası kimi yaradılıb.

Bəs niyə Seyid Cəfər Pişəvəri?

İnqilabi ruhuna, rəşadətinə görə Pişəvərini geridə qoyanlar – Mir Mehdi Çavuşi, şair general Azəri, gənc hüquqşünas Firudin İbrahimi, şair Məhəmməd Biriya, Qafar Kəndli Herisçi və başqaları heç də ondan geri qalmırdı, bəlkə də bir addım daha öndə idilər.Pişəvərinin adını qabardan başqa xüsusiyyətlər idi.

10 il məhbəs həyatının acısını dadması, sol yönümlü publisistik yazıları, Şurəvidəki keçmişi, ağlı, ziyalı obrazı – fikrimcə onu irəli çəkdi.

Pişəvərinin "Ajir" qəzetinin redaktoru kimi Rza şahı ifşa eləməsi 1943-cü ildən intensiv hal alır.Təşkilatçılıq qabiliyyəti və şəxsi nüfuzu ilə 44 qəzeti birləşdirib "Azadlıq cəbhəsi" qəzetini yaratması onun şəxsi uğuru kimi qarşılandı.1944-cü ildə 14-cü Şura Məclisinə deputat seçilməsi bu uğurların məntiqi davamı idi.İrticaçılar Seyidin deputatlığını rədd eləsələr də, xalq arasında millətin vəkili kimi qəbul olundu.Pişəvərinin qarşısına dikilən əngəllər, manelər Seyid Cəfər üçün tramplin olurdu.Məngənə nə qədər sıxırdısa, Pişəvəri o qədər hədəfə tez yetişirdi.

Nəhayət 1945-ci il...illərin ən gözəli...orda alman faşistləri məğlub oldu, burda Şah faşistləri.Faşist yazdım, bununla bağlı bir olayı da xatırladım.

***1960-cı illərin sonları Məhəmməd Biriya sürgündən qayıdanda Bakıda qalmağına icazə vermirlər.Yollanır Şamaxıya.9 May paradında Biriya əlində "Yaşasın faşizm!" yazılı bir lövhəni yuxarı qaldırır.Görənlər əl-ayağa düşürlər.Tez onu paraddan uzaqlaşdırırlar, deyirlər,***

***- 'Bu nədir", "Yaşasın faşizm!" nədir?***

***İpə-sapa yatmayan, Sovetdən incik Məhəmməd Biriya şirin cənub ləhcəsində cavab verir:***

***'Baba, siz bəyəm faşist dəəyilsiniz?!***

***1945-ci ilin sentyabrın 3-də Azərbaycan Demokratik Firqəsi yaradıldı.Bu prosesdə Mir Mehdi Çavuşinin xidmətləri əvəzsiz oldu.Bir neçə gündə 14 min Təbrizlini partiyaya qeydiyyata aldı.***

Şair, inqilabçı – sonralar ADF-nin Göyçay, Quba Komitələrinin rəhbəri olmuş Mir Mehdi Çavuşi – Təbrizin Himavar məhəlləsindən çıxmış həmşərim...

Mir Mehdi Çavuşinin sinəsi Cənubi Azərbaycanın ensiklopediyasıdır" – Söhrab Tahirin dilindən eşitdiyimiz bu cür ifadələr hafizəmizdə əbədi nəqş bağlayıb.

"Mir Mehdi Çavuşi firqə tərəfindən ona kəsilən və Moskva tərəfindən təsdiq edilən personal pensiyanı almaqdan boyun qaçırıb." Bu kimi cümlələr bu fövqəladə insana bəslədiyim məhəbbəti və marağı artırdı.

Nə qədər ki mənim iki əlim sağdır, pensiyaya əl açmaram.Firudin İbrahiminin, Azad Vətəninin qanpulunu yeyə bilmərəm.

Mir Mehdi Çavuşi 1909-cu ildə çilingər Mir Həbibin ailəsində dünyaya gəlib.Ata yurdu Təbrizdir.

-Təbriz sözünün mənası "qızdırma tökən" dir.

Mir Mehdi Çavuşi özü də məhz Xiyabani məktəbində yetişmiş bir inqilabçıdır.Londonda 15 il hüquq təhsili alan ingilis casusu Mirzə Rza xan Səidi günlərin birində Çavuşinin dükanına girir.Dükanda Çavuşidən başqa heç kəs olmadığı halda, yenə ehtiyat edərək zərli əsasını arxadan qapıya dirəyib müxatibinə üz tutur.

-Ağayi Çavuşi, səninlə məxfi bir söhbətim var.Sən mənə de görüm, həyatda yaşamaqda məqsəd nə?

-Yaşatmaq

-Yox, o şurəvilərin sözüdür.Öz sözünü de.Yaşamaqda məqsəd ağ gün görməkdir.Ağ gün üçün nə lazımdır? 200 tümən pul, bağlı-bağatlı bir ev.İstəsən bunlar sənin üçün mümkündür.

Bu şirin kəlamların arxasında gizlənmiş alçaq niyyəti dərhal başa düşən Çavuşinin dodaqlarında kinayəli bir təbəssüm oyanır.Cavuşinin cavabı səkkiz misralı bu şeir olur:

Aldat özünü, şöhrətə talib deyiləm mən,
Heyhat! Yaşamaqçün ona bir an əyiləm mən.
Minnətlə əgər başimə şah tək qoyalar tac,
Haşa, o taca tuf deməsəm, ən rəziləm mən.
Yalvarmaram, hətta belə məhv olsam həyatda,
Gör dar ağacından asılıb, ya kəsiləm mən.
Azad yaşamaqdır mənim aləmdə məramım,
Çün böyük amallara mənsub nəsiləm mən

1945 - ci ilin dekabrın 12 - də, Azər ayın 21-də hərəkat qalib gəldi.Nə gün idi o gün Allah! Azərbaycan Milli Məclisinin qərarı ilə Pişəvəri Baş nazir seçildi.

ADF –nin gördüyü işlərin sayının ölçüsünü mizana qoysaq, tərəzinin bir gözü şahə qalxar, bir gözü torpağa batar.

O qədər tərəqqi vardı ki, hətta fars zabitləri belə Pişəvəri fədailərinə qoşuldular.

Milli Universitetin, Milli radionun, Filarmoniyanın təşəkkülü, qəzetçiliyin inkişafı, doğma türkcəmizdə dərslərin keçirilməsi, savadsızlığın ləğvi uğrunda atılan qəti addımlar...

...Və bununla yanaşı "mənəm-mənəmlik", içimizdəki xəyanət (bu sözün işlənməsinə qarşı olsam da tarix naminə etiraf etmək lazımdır) uğurlarımızı xarici qüvvələrin gözünün götürməməsi, gizli sövdələşmələr, Stalinin "Gilandan sonra" kı növbəti xəyanəti, 1946 - cı ilin yazında Sovet qoşunun İrandan çıxarılması – bu kimi yüzlərlə səbəb vardı.

O səbəblərdən birini isə belə yozardım:

***Təbriz, 12 şəhrivər 1946-cı il. Azərbaycan Demokrat Firqəsinin yaradılmasının bir illiyi münasibətilə xalq bayramı.Tribunada dayanmış Kaviyan, Biriya və başqaları bir-birilərini itələyir, Pişəvərini sıxışdırır, özlərini gözə soxmağa çalışırlar.***

***Tribunanın qabağından izdiham keçir.Sinələrdə medal.Medalda Biriyanın şəkli çarpaz bayraqlar arasından boylanır.Bu medalı Biriya özü təsis edib.***

***-Qiyməti neçəyə olsa yaxşıdır?***

***-3 tümən.***

***Pişəvərinin şəkli isə kiçikdir, sanki düymə boyda.***

***'Nə üçün Tehrana gedən nümayəndə heyəti bu vaxta qədər qayıtmayıb? Bəlkə Qəvamüsəltənə onları orada yemləyir? Sən hökumət adından dərhal teleqram vur.10 saata kimi qayıdıb gəlməsələr bir daha bu yana üz çevirməsinlər"...***

(ardı gələn sayımızda)